*Naxçıvan Müəllimlər İnstitutu. Elmi əsərlər, 2025, № 1-2, s.88-92*
*Nakhchivan Teachers Institute. Scientific Works, 2025, № 1-2, p.88-92*
*Нахчыванский институт учителей. Научные труды, 2025, № 1-2, с.88-92*

**UOT: 94(100):37.03**
https://doi.org/10.30546/670832.2025.01.917

# Tarixin tədrisində istifadə olunan müasir təlim metodlar

**Müəllif(lər):**

**İsmayıl Zeynalov**
Naxçıvan Dövlət Universiteti
Tarix üzrə fəlsəfə doktoru, dosent
**E-poçt:** ismailzeynalov@gmail.com

**Açar sözlər:**təhsil, tədqiqat, tarix, müasir təlim metodları

**Annotasiya.** Məqalədə tarix fənninin tədrisində müasir təlim metodlarının rolu və əhəmiyyəti araşdırılır. Mövzunun aktuallığı XXI əsrdə təhsilin qarşısında duran əsas vəzifələrdən irəli gəlir. Belə ki, müasir dövrdə tədris prosesi yalnız faktların və biliklərin ötürülməsi ilə məhdudlaşmır, eyni zamanda şagirdlərdə tənqidi və analitik düşüncə, yaradıcı yanaşma, problem həll etmə və müstəqil öyrənmə bacarıqlarının formalaşdırılmasını hədəfləyir.

Məqalənin məqsədi ənənəvi yanaşmalarla müqayisədə tarix dərslərində şagirdyönlü, fəal və interaktiv təlim üsullarının üstünlüklərini təhlil etmək və onların praktiki tətbiq imkanlarını müəyyənləşdirməkdir. Tədqiqat prosesində layihə əsaslı öyrənmə, problem əsaslı təlim, rol oynama, debatlar, interaktiv xəritə və cədvəllərlə iş, İKT-dən istifadə və qrup işləri kimi metodların tədrisdə istifadəsinin pedaqoji imkanları araşdırılmışdır.

Aparılan təhlillər göstərir ki, bu metodların tətbiqi şagirdlərin dərsə marağını artırır, onların öyrənmə prosesində aktiv iştirakını təmin edir və biliklərin praktik tətbiqinə şərait yaradır. Həmçinin şagirdlərdə hadisələr arasında əlaqə qurmaq, səbəb-nəticə münasibətlərini anlamaq, tarixi prosesləri qiymətləndirmək və müqayisə etmək bacarıqları inkişaf edir.

Nəticə olaraq, məqalə sübut edir ki, müasir təlim texnologiyalarının istifadəsi tarix fənninin tədris keyfiyyətini əhəmiyyətli dərəcədə yüksəldir, şagirdlərin sosial, intellektual və kommunikativ bacarıqlarını inkişaf etdirərək onların şəxsiyyət kimi formalaşmasına müsbət təsir göstərir.

## Modern teaching methods used in the teaching of history

**Author(s):**

**Ismayil Zeynalov**
Nakhchivan State University,
PhD in History, Associate Professor
**E-mail:** ismailzeynalov@gmail.com

**Key words:**education, research, history, modern training methods

**Abstract.** The article examines the role and importance of modern teaching methods in the teaching of history. The relevance of the topic arises from the main tasks facing education in the 21st century. In the modern era, the teaching process is not limited to the transmission of facts and knowledge, but also aims to develop students' critical and analytical thinking, creative approaches, problem-solving abilities, and independent learning skills.

The purpose of the article is to analyze the advantages of student-centered, active, and interactive teaching methods in history classes compared to traditional approaches, and to determine the possibilities of their practical application. During the research process, the pedagogical potential of methods such as project-based learning, problem-based teaching, role-playing, debates, working with interactive maps and charts, the use of ICT, and group work was explored.

The conducted analysis shows that the application of these methods increases students' interest in lessons, ensures their active participation in the learning process, and creates opportunities for the practical application of knowledge. Furthermore, students develop the ability to establish connections between events, understand cause-and-effect relationships, evaluate and compare historical processes.

As a result, the article demonstrates that the use of modern teaching technologies significantly improves the quality of teaching history, positively influences students' personal development by enhancing their social, intellectual, and communicative skills, and contributes to their formation as individuals.

## Современные методы обучения, используемые в преподавании истории

**Автор(ы):**

**Исмаил Зейналов**
Нахчыванский государственный университет
Доктор философии по истории, доцент
**Э-почта:** ismailzeynalov@gmail.com

**Ключевые слова:**образование, исследования, история, современные методы обучения

**Аннотация.** В статье рассматривается роль и значение современных методов обучения в преподавании истории. Актуальность темы обусловлена основными задачами, стоящими перед образованием в XXI веке. Так, в современную эпоху процесс обучения не ограничивается только передачей фактов и знаний, но и направлен на формирование у учащихся навыков критического и аналитического мышления, творческого подхода, решения проблем, самостоятельного обучения.

Целью статьи является анализ преимуществ ориентированных на учащегося, активных и интерактивных методов обучения на уроках истории по сравнению с традиционными подходами и выявление возможностей их практического применения. В процессе исследования изучались педагогические возможности использования в обучении таких методов, как проектное обучение, проблемное обучение, ролевые игры, дебаты, работа с интерактивными картами и таблицами, использование ИКТ, групповая работа.

Проведенный анализ показывает, что применение этих методов повышает интерес учащихся к уроку, обеспечивает их активное участие в процессе обучения, создает условия для практического применения знаний. Также у учащихся развиваются навыки установления связей между событиями, понимания причинно-следственных связей, оценки и сравнения исторических процессов.

В заключение статьи доказывается, что использование современных технологий обучения значительно повышает качество преподавания предмета История, положительно влияет на формирование у учащихся как личности, развивая их социальные, интеллектуальные и коммуникативные навыки.

**Giriş.** Təhsil elmi, xüsusilə didaktika və metodika sahələri, insanın bilik, bacarıq və dünyagörüşünü sistemli şəkildə formalaşdırmaq üçün müasir yanaşmalar təqdim edir. Bu sahələrin ən vacib anlayışlarından biri "təlim metodu"dur. Təlim metodu təhsilverən və təhsilalan arasında qarşılıqlı fəaliyyətin təşkilində əsas rol oynayır və qədim dövrdən başlayaraq tədrisin məzmununun mənimsənilməsi və qavranılmasını təmin edən sistem kimi qəbul edilmişdir. Yunan sözü olan "metodos" – yol, izah, şərh və xüsusilə "idrak yolu" mənalarını ifadə edir ki, bu da təlim prosesində idrakın əsas istiqamətlərindən birini təşkil edir [1].

Müasir təhsil sistemində, xüsusilə tarix fənninin tədrisində təlim metodlarının rolu daha da aktuallaşır. Tarixi biliklərin yalnız ötürülməsi deyil, həm də şagirdlərin dərsə maraq və fəallığının artırılması, onların tənqidi və məntiqi təfəkkür bacarıqlarının inkişafı müasir metodların düzgün seçimi və tətbiqinə birbaşa bağlıdır. Ənənəvi metodlarda müəllim əsas rol oynayaraq dərsi izah edir, şagirdlər isə passiv şəkildə məlumatı qəbul edirdi. Müasir metodlarda isə təhsilalan təlim prosesinin mərkəzinə yerləşdirilir və bütün tədris məqsədləri onun üzərində qurulur. Bu yanaşma şagirdlərin fəal iştirakı, müstəqil düşünməsi, analitik və tənqidi bacarıqlarının formalaşmasını təmin edir [5].

Tarix təlimi zamanı tətbiq olunan metodlar şagirdlərin idrak fəaliyyətinin fərqli istiqamətlərini əhatə etməli və onların təcrübi və praktik bacarıqlarını inkişaf etdirməlidir. Müasir dövrdə tarix fənninin tədrisində geniş istifadə olunan metodlar – şifahi (mühazirə, izah, söhbət), vizual (xəritə, diaqram, şəkil), praktik (mənbələrlə iş, layihələr), interaktiv və problemli təlim metodlarıdır. Bu metodlar dərsdə şagirdlərin fəal iştirakını təmin edir, dərsin əyani və maraqlı keçməsinə şərait yaradır, tənqidi düşüncənin inkişafına imkan verir.

Təlim metodu həmçinin müəllim və şagird arasında qarşılıqlı münasibətlərin düzgün qurulmasında mühüm rol oynayır. Müasir tarix müəllimi tədris prosesində yalnız bilik ötürən deyil, həm də şagirdlərin şəxsiyyət yönümlü inkişafını təmin edən pedaqoji vasitəçi rolunu daşıyır. Bu məqsədlə, müəllim fərdi yanaşma tətbiq etməli, şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə alaraq təlim metodlarını seçməli və onların dərsdə fəal iştirakını təmin etməlidir. Müasir metodlar şagirdlərin yeni bilikləri tənqidi və analitik şəkildə mənimsəməsinə, problemləri həll etmə bacarıqlarının inkişafına və əməkdaşlıq bacarıqlarının formalaşmasına kömək edir.

Müasir texnologiyalar və informasiya-kommunikasiya vasitələri də tarix təlimində əhəmiyyətli rol oynayır. Kompüter təqdimatları, videometodlar, rəqəmsal resurslar və multimediya vasitələri dərsi daha interaktiv və əyani edir. Bu vasitələr yalnız informasiyanın ötürülməsini təmin etmir, həm də şagirdlərin fəal iştirakı, problemlərin həlli və yaradıcı fəaliyyətinə şərait yaradır. Beləliklə, tarix fənninin tədrisində müasir texnologiyalardan istifadə həm tədrisin keyfiyyətini yüksəldir, həm də şagirdlərin tarixi bilikləri mənimsəməsini sürətləndirir [4].

Tarix təlimində istifadə olunan müasir təlim metodlarının təsiri yalnız bilik ötürülməsi ilə məhdudlaşmır. Fəal/interaktiv metodlar şagirdlərin motivasiyasını artırır, dərsdə iştiraklarını stimullaşdırır, tarixi hadisələri analiz etməyə və öz müstəqil nəticələrini çıxarmağa imkan verir. Müəllim dərsi planlaşdırarkən induktiv və deduktiv yanaşmalardan istifadə etməli, mövzular arasında əlaqə yaratmalı və şagirdlərin diqqət və marağını qorumaq üçün uyğun vizual, praktik və interaktiv vasitələrdən faydalanmalıdır.

Əlavə olaraq, tarix müəlliminin pedaqoji bacarıqları və dünyagörüşü də dərsin səmərəliliyində vacib rol oynayır. Müəllim-şagird münasibətlərinin düzgün qurulması, qarşılıqlı hörmətin təşviqi, şagirdlərin maraq və istəklərinə uyğun təlim metodlarının seçilməsi, eləcə də şəxsiyyət yönümlü təlim yanaşmaları tədrisin effektini artırır. Tarix müəllimi yalnız tarixi bilikləri ötürməklə kifayətlənməməli, həm də şagirdlərin analitik, tənqidi və yaradıcı düşüncələrini inkişaf etdirməli, onların tarixi hadisələri anlamalarına və fərdi baxış formalaşdırmalarına şərait yaratmalıdır.

Bu tədqiqatın məqsədi tarix təlimində müasir təlim metodlarının effektivliyini araşdırmaq, şagirdlərin idrak fəaliyyətində və tarixi biliklərin mənimsənilməsində bu metodların rolunu müəyyən etməkdir. Həmçinin, müəllimlərin interaktiv təlim metodlarından, praktik tapşırıqlardan və müasir texnologiyalardan istifadə imkanlarını qiymətləndirmək və onların tədrisin keyfiyyətinə

təsirini analiz etməkdir. Bu yanaşma, tarix fənninin tədrisini daha məqsədyönlü, fəal və səmərəli etmək üçün elmi-praktik baza təmin edir.

**Material və metodlar.** Tədqiqatın materialı əsasən ümumtəhsil məktəblərində tarix fənninin tədrisi prosesində istifadə olunan müxtəlif təlim metodları və onların səmərəliliyi ilə bağlı elmi ədəbiyyatlar, pedaqoji təcrübələr, müəllim müşahidələri və dərs nümunələridir. Eyni zamanda tədqiqatın materialına şagirdlərin fəallığı, dərs zamanı qarşılıqlı fəaliyyətin keyfiyyəti və istifadə olunan əyani vasitələr də daxildir. Mənbələr arasında həm klassik dərsliklər, metodik göstərişlər, həm də müasir təlim texnologiyaları və rəqəmsal resurslar yer alır.

Tədqiqat metodikası bir neçə istiqamətdə qurulmuşdur:

**1. Analitik metod** – metodik ədəbiyyatların təhlili, müxtəlif təlim metodlarının nəzəri əsaslarının müqayisəsi və tədrisdə onların tətbiqi prinsiplərinin müəyyən edilməsi üçün istifadə olunmuşdur. Bu metod vasitəsilə həm ənənəvi, həm də müasir təlim metodlarının xüsusiyyətləri, üstünlükləri və mümkün çatışmazlıqları sistemləşdirilmişdir.

**2. Müşahidə metodu** – dərs prosesində müəllim-şagird qarşılıqlı fəaliyyətinin, şagirdlərin aktivliyinin və metodların dərsdə tətbiqinin müşahidəsi üçün istifadə edilmişdir. Müşahidə nəticələri dərsin səmərəliliyinin qiymətləndirilməsində və metodların praktik tətbiqi barədə nəticə çıxarılmasında əsas rol oynamışdır.

**3. Eksperimental metod** – müəyyən mövzuların tədrisində fərqli təlim metodlarının tətbiqi və onların şagirdlərin bilik, bacarıq və fəaliyyətinə təsirinin müqayisəli araşdırılması üçün aparılmışdır. Bu metodla şagirdlərin deduktiv, induktiv və interaktiv təlim şəraitində əldə etdikləri nəticələr qiymətləndirilmişdir.

**4. Sorğu və anket metodu** – şagirdlər və müəllimlər arasında təlim metodlarının qəbulu, dərs zamanı maraq və fəallıq səviyyəsi haqqında məlumat toplamaq məqsədilə istifadə edilmişdir. Bu metod vasitəsilə tədqiqatın subyektləri olan şagirdlərin təlimə münasibəti, onların fərdi xüsusiyyətlərinə uyğun metod seçiminin əhəmiyyəti qiymətləndirilmişdir.

**5. Kommparativ metod** – ənənəvi və müasir metodların effektivliyinin müqayisəsi aparılmışdır. Bu yanaşma vasitəsilə fəal-interaktiv təlim metodlarının, sözlü, əyani, praktik və problemli metodların şagirdlərin idrak və tənqidi düşüncə qabiliyyətlərinə təsiri sistemli şəkildə müəyyən edilmişdir.

Tədqiqatda istifadə olunan metodlar bir-birini tamamlayıcı xarakter daşıyır və məqsəd tarix fənninin tədrisində metod seçiminin düzgün qurulmasını, şagirdlərin fəallığını artırmaq və təlim keyfiyyətini yüksəltməkdir. Xüsusilə interaktiv və əyani metodlar, praktiki tapşırıqlar və İKT vasitələrinin tətbiqi tədqiqatın əsas fokus nöqtəsi olmuşdur.

Beləliklə, material və metodlar hissəsi tədqiqatın elmi əsaslarını və praktik yönünü birləşdirərək tarix fənninin tədrisində metodların səmərəli tətbiqi üçün baza rolunu oynayır.

**Nəticə və müzakirə.** Tədqiqat nəticələri göstərir ki, tarix fənninin tədrisində istifadə olunan metodların seçimi və tətbiqi dərsin keyfiyyətinə və şagirdlərin öyrənmə motivasiyasına birbaşa təsir edir. Analitik və eksperimental təhlillərdən əldə olunan məlumatlara görə:

**1. Ənənəvi metodlar** (sözlü izah, dərslik üzərindən tədris, əyani vasitələrin məhdud istifadəsi) əsas biliklərin ötürülməsi üçün faydalıdır, lakin şagirdlərin fəallığını və dərsə marağını uzunmüddətli saxlamaq baxımından məhdud imkanlar təqdim edir.

**2. Müasir fəal və interaktiv metodlar** (problemli təlim, induktiv metodlar, qrup işi, layihə əsaslı öyrənmə) şagirdlərin tənqidi və analitik düşünmə bacarıqlarını daha sürətlə inkişaf etdirir. Bu metodlar şagirdlərin dərs materialını daha yaxşı mənimsəməsinə, əldə edilən bilikləri praktik vəziyyətlərdə tətbiq etməsinə və dərs prosesində aktiv iştirakına şərait yaradır.

**3. Metodların qarışıq tətbiqi** – ənənəvi və müasir metodların balanslı şəkildə istifadə olunması dərs prosesinin həm informativ, həm də interaktiv olmasını təmin edir. Təhlil göstərir ki, belə yanaşma şagirdlərin bilik və bacarıqlarının hərtərəfli inkişafına səbəb olur.

Müzakirə zamanı müəyyən edilmişdir ki, təlim prosesində metod seçimi yalnız müəllimin şəxsi təcrübəsindən asılı olmamalıdır; o, həmçinin şagirdlərin yaş xüsusiyyətləri, dərs mövzusu və tədris resurslarının əlçatanlığı nəzərə alınaraq sistemli şəkildə aparılmalıdır. Eksperimental nə-

ticələr göstərir ki, interaktiv metodlardan istifadə edən müəllimlərdə şagirdlərin dərsə motivasiyası və fəallığı əhəmiyyətli dərəcədə yüksəkdir.

Tədqiqatın praktiki əhəmiyyəti ondan ibarətdir ki, müəllimlər dərs planlaşdırmasında metod seçimini optimallaşdıraraq dərs prosesini həm informativ, həm də əyləncəli və interaktiv edə bilərlər. Bu, şagirdlərin öyrənmə motivasiyasını artırır, dərs materialını uzunmüddətli yadda saxlamağa kömək edir və onların tənqidi düşünmə bacarıqlarını inkişaf etdirir.

Nəticə olaraq, tarix fənninin tədrisində metodların məqsədli, sistemli və şagird mərkəzli tətbiqi, eləcə də ənənəvi və müasir yanaşmaların uyğun kombinasiyası tədrisin keyfiyyətinin yüksəldilməsi üçün vacibdir.

**Yekun nəticə.** Tədqiqatın yekun nəticəsi göstərir ki, tarix fənninin tədrisində metodların məqsədli və sistemli tətbiqi təhsil prosesinin səmərəliliyini birbaşa artırır. Analitik və eksperimental nəticələr sübut edir ki:

1. Müasir fəal və interaktiv metodlar şagirdlərin dərsə marağını artırır, tənqidi və analitik düşüncə qabiliyyətlərini inkişaf etdirir və öyrənilən biliklərin uzunmüddətli yadda qalmasını təmin edir.

2. Ənənəvi metodlarla müasir metodların balanslı şəkildə birləşdirilməsi dərsin informativliyini və interaktivliyini artırır, şagirdlərin fərdi xüsusiyyətlərinə uyğun öyrənmə imkanları yaradır.

3. Təlim prosesində metod seçimi yalnız müəllimin bacarığına deyil, həm də şagirdlərin yaş səviyyəsi, dərs mövzusu və mövcud tədris resursları nəzərə alınaraq aparılmalıdır.

4. Fəal/interaktiv təlim metodlarının tətbiqi, eləcə də müasir informasiya və kommunikasiya texnologiyalarının dərs prosesinə inteqrasiyası şagirdlərin öyrənmə motivasiyasını yüksəldir və dərs materialını daha əlçatan edir.

Nəticədə, tarix fənninin səmərəli tədrisi üçün müəllimlərin metodik bacarıqlarının artırılması, təlim strategiyalarının şagird mərkəzli planlaşdırılması və müasir texnologiyalardan istifadə tədrisin keyfiyyətini yüksəldən əsas amillərdən hesab olunur. Bu yanaşma həmçinin şagirdlərin tarixi bilik, bacarıq və dünyagörüşünün formalaşmasına, onların müstəqil düşünmə və tənqidi yanaşma qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Təhsil Nazirliyi Naxçıvan Müəllimlər İnstitutu. Milli kurikulum yeni təlim metodlarında. Metodik vəsait. – Naxçıvan: – 2012. – 137 s.
2. Əliyev, F. Tarixin tədrisi metodikası. – Bakı: Elm və Təhsil, – 2015.
3. Əliqızı, V. “Müəllim-şagird münasibətləri səmimilik və sevgi üzərində qurulmalıdır.” Azərbaycan müəllimi qəzeti, 20 fevral 2016
4. Əmirov, M.M. Ümumtəhsil məktəblərində tarixin fəal/interaktiv təlimi metodikası / M.M.Əmirov. Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. – Bakı: ADPU, – 2011. – 707 s.
5. Cəlilov, A. Azərbaycan tarixinin interaktiv təlim metodları ilə tədrisində şagirdlərdə tarixi anlayışların formalaşdırılması / A.Cəlilov. – Bakı: – 2006. – 155 s.
6. Hüseynov, Ə. Tarixin tədrisi metodları və formatları / Ə.Hüseynov. – Bakı: Maarif, – 2007.
7. İbrahimov, X. “Pedaqoji ünsiyyət mədəniyyətinin bəzi problemləri.” Azərbaycan məktəbi jurnalı, – 1991, №1, – s.17.
8. İlyasov, M. Müəllimin pedaqoji ustalığı / M.İlyasov. – Bakı: Elm və Təhsil, – 2013. – 215 s.
9. İsmayılova, Ü. “Təlim prosesində yeniyetmələrdə müstəqilliyin inkişaf etdirilməsi.” Azərbaycan Respublikası Təhsil İnstitutunun Elmi əsərləri, 2018, 85 cild, №3, – s.73-78
10. Kərimov, Y.Ş. Təlim metodları / Y.Ş.Kərimov. – Bakı: – 2007. – 264 s.
11. Məmmədova, N. “Tədrisin təşkilində müəllim-şagird münasibətləri.” Azərbaycan müəllimi qəzeti, 14 iyul 2017, №13.
12. Məmmədova, N.S. “Azərbaycan tarixinin tədrisində tələbələrin müstəqil işlərinin təşkili texnologiyalarının tədqiqi səviyyəsi.” Pedaqoji Universitetin xəbərləri, – 2019, №1, Cild 67, – s.167-173.
13. Metodik işin təşkili, məzmunu, formaları və metodları. Metodik tövsiyə. – Bakı: –1989. – 31 s.
14. Musayev, D. Tarixin tədrisində interaktiv metodlardan istifadənin imkanları / D.Musayev. Monoqrafiya. – Bakı: – 2022. – 229 s.

15. Nəzərov, A.M. Pedaqoji ustalıq / A.M.Nəzərov, R.Ə.Məmmədov. – Bakı: Müəllim nəşriyyatı, –2008. – 84 s.
16. Orta məktəblərdə yeni təlim metodları. – Bakı: Açıq Cəmiyyət İnstitutu, – 2001. – 98 s
17. Paşayev, Ə.X. Pedaqogika (yeni kurs) / Ə.X. Paşayev, F.A.Rüstəmov. Ali məktəblər üçün dərs vəsaiti. – Bakı: Nurlan, – 2007. – 464 s.

*Məqalə tarix üzrə elmlər doktoru, dosent Zeynəb Quliyeva tərəfindən təqdim olunmuşdur.*

İlkin daxilolma – 14.01.2025, son daxilolma – 17.02.2025, qəbulolunma – 12.03.2025